# Kəhf surəsi, 56-57 (Axırzamana işarələr və diri görünüb ölü olan insanlar)

**Adnan Oktarın 21 noyabr 2009-cu il tarixli Kral Qaradəniz və Kanal Urfa müsahibəsindən**

**Adnan Oktar: "Biz elçiləri yalnız müjdə verənlər və xəbərdarlıq edənlər kimi göndəririk".** Bu ayənin əbcədi əsrimizə işarə edir. Bununla yanaşı Mehdiyə də işarə edir. Çünki Kəhf surəsi Mehdi ilə əlaqəli bir surədir. Peyğəmbərimiz axırzamanda Əshabu-Kəhfin Mehdinin köməkçiləri olduğunu bildirmişdir. Bu nə deməkdir? Kəhf surəsi və Mehdi iç-içədir. **"Kafirlər isə batil dəlilləri ilə haqqı aradan qaldırmaq üçün mübahisə edirlər".** Bu da kimdir? İddia edilən Ergenekon Təşkilatı, yəni dəccaliyət. **"Onlar Mənim ayələrimə və xəbərdar olunduqları şeylərə istehza edirlər. Rəbbinin ayələri yadına salınarkən ...".** Məsələn, biz də, ayələri xatırladırıq. **"Onlardan üz döndərən, əvvəlcə öz əlləri ilə etdikləri günahlarını unudan adamdan daha zalım kim ola bilər?"** Üz döndərir məsələn, izah edirsən, amma dinləmək istəmir. Öz işinə baxmaq istəyir. **"Əvvəlcə öz əlləri ilə etdikləri günahlarını unudan adamdan daha zalım kim ola bilər?"** Məsələn, yaxşılıqlar da etmiş, amma onları da unutmuş, gözəl ibadətləri olmuş, gözəl hərəkətləri olmuş onlardan da imtina etmiş. **"Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik".** Bu mütəşabeh deyil. Allah bu insanları anlamayacaq, qavramayacaq şəkildə yaradır. Yəni "ölüdürlər" deyir. Allah: **"Siz onu diri zənn edərsiniz"** deyir. Allah onsuz da mövzuya açıqlıq gətirir, yəni bunlar yeriyən ölüdürlər**. "Qulaqlarına da tıxac vurduq. Sən onları doğru yola çağırsan da, onlar heç vaxt doğru yola gəlməzlər".** Bax Allah, **"heç vaxt"** deyir. Yəni sonsuza qədər belə yaradılmış, xüsusi yaradılmış. **"Qulaqlarına da tıxac vurduq"** -deyir. Qulağı xüsusilə bağlanılmış, dinləmir, anlamır. **"Rəbbin Bağışlayandır, mərhəmət sahibidir".** Bəli, müsəlmanlar elə olacaqlar, Allahın əxlaqıyla əxlaqlanacaqlar, bağışlayıcı olacaqlar, gözəl əxlaqlı olacaqlar.

https://www.harunyahya.info/az/meqaleler/kehf-suresi-56-57-axirzamana-isareler-ve-diri-gorunub-olu-olan-insanlar